Xalq qəzeti 2021.- 2 may.- S.6.

# "Böyük Qayıdış"ın ilk addımları



***Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Ermənistan silahlı qüvvələrini darmadağın etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə dərhal abadlıq-quruculuq işlərinə başlanılıb. Dövlətimizin başçısı öz ailə üzvləri ilə birlikdə həmin ərazilərə gedir, düşmənin barbarlığı ilə yerində tanış olur. Ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələrinin, habelə əcnəbi və yerli kütləvi informasiya vasitələri əməkdaşlarının işğaldan azad olunmuş ərazilərimizə gedərək, ermənilərin törətdikləri ağlasığmaz vəhşilikləri öz gözləri ilə görmələri bu millətin faşistlərdən də betər qəddar olduğunu bir daha təsdiqləyir.***

Artıq ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Dövlətimizin başçısının 4 yanvar 2021-ci il tarixli fərmanı əsasında Qarabağ Dirçəliş Fondu yaradılmasında da əsas məqsəd işğaldan azad edilmiş ərazilərdə əvvəlkindən də yaxşı, ən müasir tələblərə cavab verən yaşayış məntəqələri tikməkdir. Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılmış qurumdur. Mən bir qarabağlı kimi, həmin ərazilərdə tikinti- abadlıq işlərinin start götürməsindən qürur duyuram.

Möhtərəm Prezidentimiz və onun ən yaxın silahdaşı, Birinci vitse – prezident Mehriban xanım Əliyeva, həmçinin qızları, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 6-cı dəfədir ki, işğaldan azad edilmiş ərazilərə gedir, Azərbaycan bayrağını qaldırır, yeni obyektlərin təməlini qoyurlar. Onlar bugünlərdə Cəbrayıl və Zəngilan rayonlarına səfərləri zamanı yeni obyektlərin təməlqoyma mərasimlərində iştirak etdilər. Səfər zamanı yeni Horadiz – Zəngilan avtomagistral yolunun təməlinin qoyulacağı barədə məlumat verildi. Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır.

Zəngilan rayonunda "Ağıllı kənd" pilot layihəsi rayonun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Dövlətimizin başçısına məlumat verildi ki, layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub.

Diqqət çəkən məqamlardan biri də Zəngilan Beynəlxalq Hava Limanının təməl daşının qoyulması oldu. Yaxın gələcəkdə Zəngilan hava limanı inşa ediləcək. Bu hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq.

Artıq Füzuli Beynəlxalq Hava Limanının tikintisi də uğurla gedir. Bu il limanın uçuş-enmə zolağı istismara veriləcək.

Bütün bunlar təsdiqləyir ki, xalqımız "Böyük qayıdış"ın astanasındadır. Artıq doğma yurd həsrətinə birdəfəlik son qoyulur. Ata- baba yurdlarından didərgin salınmış həmvətənlərimiz isti ocaqlarına qayıtmağa hazırlaşırlar.

***Havva MƏMMƏDOVA,***
***tarix elmləri doktoru, professor***